**Əqli Mülkiyyət Sahəsində**

**Gənc Alimlərin “İntellekt” VI Beynəlxalq Müsabiqəsi**

Müsabiqə hər il ali təhsil müəssisələrinin və elmi-tədqiqat institutlarının 35 yaşa qədər olan bakalavriat, magistrant, aspirant və elmi işçiləri arasında keçirilir.

**Müsabiqənin təsisçiləri:** Rusiyanın Federal Əqli Mülkiyyət Xidməti (Rospatent), Federal Dövlət Ali Təhsilin Büdcə Tədris Müəssisəsi “Rusiya Dövlət Əqli Mülkiyyət Akademiyası” (RQAİS) və Avrasiya Patent İdarəsi (AAPİ)

**Müsabiqənin məqsədi:**

- Əqli mülkiyyət sahəsində elm və təhsil fəaliyyətinin inkişafı və inteqrasiyası
- Əqli mülkiyyət sahəsində gənclərin peşəkar inkişafına kömək.

**Müsabiqə 4 mərhələdən ibarətdir:**

**1)** Qeydiyyat və ərizələrin qəbulu (01.03.2025-ci il tarixindən 31.10.2025-ci il tarixinədək)

**2)** Elmi layihələrin qiyabi ekspertizası (01.11.2025-ci il tarixindən 30.11.2025-ci il tarixinədək)

**3)** Müsabiqənin finalında iştirak etmək hüququ qazanan iştirakçılar barədə məlumatların RQAİS saytında yerləşdirilməsi, müsabiqənin finalında elmi işlərin təqdimat (prezentasiya) ilə çıxış formatında müdafiəsi (15.12.2025-ci il tarixinədək)

**4)** Rospatent Kollegiyasında müsabiqə qaliblərinin mükafatlandırılması (2026-cı ilin fevral-mart ayları)

**Müsabiqənin qalibi (1-ci yer) və mükafatçıları (2-ci, 3-cü və 4-cü yerlər) 80.000-dən 150.000 rubla qədər məbləğda pul mükafatı ilə təltif edilir və RQAİS-in təhsil proqramlarına sertifikat (təhsil almaq üçün 50% endirim), həmçinin AAPİ tərəfindən xüsusi priz – Əqli Mülkiyyət Yay Akademiyasında oxumaq üçün sertifikat əldə edəcəklər.**

**Müsabiqəyə təqdim olunan işlər məzmun baxımından aşağıdakı istiqamətlərə uyğun olmalıdır:**

-əqli mülkiyyət sahəsində perspektiv inkişaf tendensiyaları;

-əqli mülkiyyət sahəsində dövlət idarəçiliyi;

- kiçik və orta müəssisələr: əqli mülkiyyətin idarə olunmasının problemləri;
- əqli mülkiyyət hüquqlarının kommersiyalaşdırılmasına hüquqi və iqtisadi dəstək mexanizmləri;
- muzeylər və əqli mülkiyyət: problemlər və təkmilləşdirmə yolları;
- əqli mülkiyyət sahəsində mediasiya və arbitraj prosedurları üzrə problemlər;
- əqli mülkiyyət hüquqları ilə bağlı mübahisələrdə inzibati məsuliyyət institutunun inkişafı;
- müəlliflik hüququ obyektlərinin məhkəmə ekspertizasının aparılması metodologiyası;
- qeyri-ənənəvi əqli mülkiyyət obyektlərinin qorunmasının beynəlxalq tənzimlənməsi;
- xüsusi, hərbi və ikiqat təyinatlı texnologiyaların yaradılması və kommersiyalaşdırılması;
- Avrasiya məkanı ərazisində müəlliflik hüquqlarının qorunması mexanizmlərinin vəziyyəti, problemləri və inkişaf perspektivləri;
- əqli mülkiyyət tibb sənayesinin inkişafının drayveri kimi;
- Avrasiya patent sistemi: inkişaf yolları və əqli mülkiyyət obyektlərinin siyahısının genişləndirilməsi;
- əmtəələrin mənşə yerinin adlarının və coğrafi göstəricilərin regionun inkişafı üçün əhəmiyyəti;
- vahid hüquq sahəsi Avrasiya İqtisadi İttifaqı ölkələrində əqli mülkiyyət hüquqlarının qorunması üçün vacib şərt kimi;
- Avrasiya məkanı ərazisində patent məlumatı bazalarının inteqrasiyasının ilkin hüquqi və iqtisadi şərtləri: problemlər və həlli yolları;
- Rusiya və Avrasiya məkanı ölkələrində əqli mülkiyyət sahəsində təhsil sisteminin yaradılması və inkişafı;
- idxalın əvəzlənməsi strategiyası və mexanizmləri əqli mülkiyyət sahəsinin inkişaf amili kimi.

Müsabiqədə iştirak üçün aşağıdakı linkdən qeydiyyatdan keçmək lazımdır:
https://rgiis.ru/index/o-konkurse-intellekt2025/

**Sənədlərin siyahısı:**

- Müsabiqədə iştirak üçün ərizə (1 №-li Əlavədə yerləşdirilmiş forma üzrə iştirakçının imzası olan ərizənin skan edilmiş surəti);
- 27 iyul 2006-cı il tarixli 152-FZ nömrəli "Fərdi məlumatlar haqqında" Federal Qanunun 9-cu maddəsinə uyğun olaraq fərdi məlumatların emalına razılıq (2 №-li Əlavə);

- Müsabiqə istirakçısının təmsil etdiyi təşkilatın rəhbəri və ya digər səlahiyyətli şəxs tərəfindən imzalanmış, təşkilatın blankında iştirakçıya verilən müşayiət məktubu (sərbəst formada məktubun skan edilmiş surəti);
- Son üç il ərzində alınan ümumrusiya və beynəlxalq müsabiqə, olimpiada, sərgi və digər elmi-texniki tədbirlərin diplomlarının surətləri (əgər varsa);
- patent və digər mühafizə sənədlərinin surətləri (əgər varsa);
- təqdim olunmuş işin məzmununa aid son 3 ildə çap olunmuş nəşrlərin (elmi işlər, məqalələr, tezislər, konfrans məruzələri) siyahısı (əgər varsa);
- pasportun surəti (SAA və yaşayış yeri üzrə qeydiyyat barədə məlumat ilə);
- iştirakçının tərcümeyi-halı: ali təhsil müəssisəsi və ya elmi-tədqiqat müəssisəsinin tam adı, ünvanı (poçt indeksi ilə), telefon nömrəsi, internet saytının ünvanı, elektron ünvanı, təqdimn olunan işin elmi rəhbərinin tam adı, əlaqə məlumatları;
- Müsabiqəyə təqdim edilmiş elmi iş (ümumi həcmi 1-2 çap vərəqi; ***Qeyd: 1 çap vərəqi 16 A4 vərəqidir***);
- Elmi işə profil üzrə təhsili və/və ya elmi dərəcəsi olan (əgər varsa) mütəxəssislər tərəfindən 1 rəy;
- Elmi işin antiplagiat sistemindən keçirilməsinə dair müvafiq arayış;
- İştirakçının fotoşəkili (şəkil rəngli və **.png** və ya **.jpeg** formatında olmalıdır).

**Müraciətlərin qəbulu üçün son tarix:** 31 oktyabr 2025-ci il

**Əlaqələndirici şəxs:** *Əqli Mülkiyyət Agentliyinin əməkdaşı, Mərziyyə Ağayeva, (tel.:* 960 (daxili nömrə 1119), e-ünvan: m.agayeva@patent.gov.az *)*

**Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi**